

***<u>Ay Bəniz Əliyar,</u>***
***<u>Quba</u>***

**Bir məram yüklənir ağaca, suya,**
**Adi qanqal belə əlacsız bitmir.**
**Heç nə elə-belə gəlmir dünyaya,**
**Heç nə elə-belə dünyadan getmir.**

**Dəyər verənlərə şükür, çox şükür,**
**Kəramət sahibi Tanrıdır yenə.**
**Ona da sirr deyil ürəyimdəki,**
**Şair doğulmağım lütfdür mənə.**

**Hələ üzülməyib eşq yer üzündən,**
**O səbəb, dünyanın varoluşuna.**
**Əgər sevgi varsa, demək, mən varam,**
**Demək, yaşamıram boşu-boşuna.**

**Sağalda bilirəm könül yaramı,**
**Demək, ruhumdadır Tanrının eşqi.**
**Hər kəsin dünyaya gəliş məramı,**
**Xeyirdən ibarət olaydı, keşkə...**

Ədalət .- 2025.- 26 dekabr (№49).- S.14.